SƏMƏD VURĞUN - 120

PREZİDENT SƏRƏNCAMININ İŞIĞINDA...

# Səməd Vurğun hansı şairi ölümdən qurtardı?



**Azərbaycan Prezidentinin Sərəncamında qeyd olunur ki, 2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.**

O, Azərbaycan ədəbiyyatı qarşısında göstərdiyi xidmətlərlə bərabər, bir neçə şair və yazıçımızı repressiya təhlükəsindən, ölümdən və sürgündən xilas edib, çoxlarına pulla kömək edib. Danışırdılar ki, qəzəlxan Əliağa Vahidlə görüşəndə dolanışığının çətin olduğunu bildiyi üçün onun cibinə pul qoyub. Vahiddən ayrılandan sonra şairlərdən biri bunun səbəbini soruşub. Səməd: "Ona pul borcum vardı,-"deyir. İkinci, üçüncü dəfə təkrar olunur. Hər dəfə soruşanda "Borc almışdım, qaytardım"- cavabını verir. Dara düşənlərdən də köməyini heç vaxt əsirgəməyib. Qısa da olsa onlardan biri barədə məlumat verəcəyik.

Şeirləri aşıqların və xanəndələrin dilindən düşməyən Məzahir Axundov (Daşqın) atası Həmzə kişini heç bir günahı olmadan 1938-ci ildə güllələyən NKVD-yə və zülmkar Sovet hökumətinə nifrət edirdi. Elə həmin ərəfədə SSRİ- Finlandiya müharibəsinə səfərbərliyə alınan gənc Məzahir üç il sonra, 1941-ci il Almaniya-SSRİ müharibəsinə göndərilən kimi əsir alındı və almanların bir neçə düşərgəsində işgəncələrə məruz qoyuldu. O, yenicə yaradılan Azərbaycan legionunda musiqi taqımında fəaliyyət göstərdi, çıxışlarını və məqalələrini oxuyan komandanlıq onu cəbhə qəzetinə müxbir təyin etdi. Məzahir özünə "Daşqın" təxəllüsü götürüb Vətən, sevgili, yurd həsrətli lirik şeirlər yazmağa başladı. Onun daşqın çaya bənzər yaradıcılığı da ayrılıqdan, həsrətdən və nisgildən formalaşdı. Əslində, bundan xeyli əvvəl Məzahirin şeirləri Azərbaycanda geniş yayılmış, ədəbi mühit tərəfindən yüksək qiymətləndirilmişdi. Görkəmli şair Səməd Vurğun gözəl şeirlər müəllifini taparaq onunla tanış oldu. Sonralar bu tanışlıq dostluğa çevrildi.

Nəhayət, müharibə qurtaranda almanlar onu Sovet hərbçilərinə təhvil verdilər. Ailəsini, qohum-əqrəbasını görmək, həsrətinə qovuşmaq sevinci ilə anadan olduğu Tərtərin Borsunlu kəndinə tələsdi. Lakin arxadan gələn çekistlər onu kəndə çathaçatda tutaraq Bakıya gətirdilər. Deyilənlərə görə, əsirlikdə olanların əksərinə Moskvada ölüm hökmü yazmışdılar. O cümlədən də Məzahir Daşqın Vətən xaini hesab olunaraq güllələnməyə məhkum edilmişdi.

Bu acı xəbər xalqımızın sevimli şairi Səməd Vurğuna da çatdı. O, Məzahir kimi istedadlı şairin məhv edilməsi ilə heç cür barışa bilmirdi. Şair onu da başa düşürdü ki, Məzahiri yanız bir nəfər, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov xilas edə bilər. Odur ki, vaxt itirmədən Bağırovun qəbuluna getdi. Onu çox da gözlətmədilər. Bağırovun şairə simpatiyası olduğu üçün dərhal qəbul etdi və əyləşməyə yer göstərdi. - Buyur, şair, eşidirəm, - dedi. Səməd Vurğun:

-Yoldaş Bağırov, Məzahir Daşqın kimi istedadlı şair yüz ildə bir dünyaya gəlir. Onun ölümü Azərbaycan ədəbiyyatına böyük zərbə olar, - dedi. Mircəfər Bağırovun sifəti sərtləşdi. Başa düşdü ki, şair nə demək istəyir. Odur ki, əsəbiliklə üstünə "güllələnmə" sözü yazılmış qovluğu qarşısına çəkib dərkənar yazdı: "İyirmi beş illik həbs." Sonra da əlavə etdi ki, şair bir də belə məsələ üçün gəlməsin, Moskva bu cür humanistliyi heç kəsə bağışlamır.

Səməd Vurğun ayağa qalxıb minnətdarlıq etdi və kabinetdən sevincək çıxdı. Əlbəttə, Məzahir Daşqını ölümün pəncəsindən almışdı.

Daşqını güllələmədilər, 25 il müddətinə Sibirə - "gedər-gəlməzə" sürgün etdilər. Səməd Vurğun məşhur yazıçı Aleksandr Fadeyevlə Məzahir saxlanan həbs düşərgəsinə görüşə getsə də, hərbçilər onlara görüş vermədilər,-vətən xaini ilə görüşmək qadağandır, - dedilər. Gətirdikləri ərzaq bağlamasını isə alıb özləri çatdıracaqlarını bildirdilər. O vaxt-1954-cü ilin dekabrında Məzahir Qorki vilayətində sürgün həyatı yaşamaqda idi. Həmişə "vətən xaini" deyə onunla sərt rəftar edən nəzarətçi bu dəfə yumşaq əda ilə yanına çağırır, mülayim səslə deyir:

- Şair, sənə bağlama gətiriblər. Bax, gör nədir?

Şair çaşıb qalır. Nə cavab verəcəyini bilmir. Susur və çiynini çəkir. Nəzarətçi iri bir bağlamanı ona uzadır. Məzahir nəzarətçinin gözü qarşısında bağlamanı açır. Yeməklər, bir cüt isti corab və uzunboğaz keçə çəkmə...Nəzarətçi bildirir ki, onlardan biri cavan olsa da saçları ağappaqdır. Sonra nəzarətçidən öyrənir ki, Aleksandr Fadeyevlə gələn Səməd Vurğun olub. Məzahir xatırlayır ki, Səməd Vurğun etibarlı dost kimi həm Mingəçevirdə, həm də Bayıl həbsxanasında saxlanarkən ona kostyum və ərzaqlar gətirirdi.

Fadeyevlə Vurğun "görüşdən" qayıdanda yolda yazıçı şairdən soruşur:

- Bu necə şairdir ki, üstündə bir belə əsirsən? Səməd də qısa cavab verir: - Mənim kimi...

Əzablı katorqa on bir il davam etdi. Nikita Xruşov SSRİ-də hakimiyyətə gələn kimi bir barmaq işarəsi ilə günahsız insanları məhv edən, ailələri başsız qoyan amansız cəlladlar-İosif Stalinlə Lavrenti Beriyanın həbs etdirdikləri hərbi əsirlərin azad edilməsinə qərar verdi. 1956-cı il iyulun sonlarında şair Məzahir Daşqın cəzasının qalan hissəsini çəkmədən bəraət verilərək həbsdən azad edilir. Günlərlə yol gəlib Bakıya çatır. Yazışılar İttifaqına tələsir. Orada ona Səməd Vurğunun iki ay əvvəl vəfat etdiyini bildirirlər. O, bu acı xəbərdən sarsılır, özünə gələ bilmir, qarşıdakı bağa keçib əyləşir. Oradan bir dəstə gül-çiçək alıb Fəxri Xiyabana-Səməd Vurğunun məzarını ziyarətə gedir. Bu "görüşə" "Ağladı" adlı şeir də yazır:

*...Daşqınam, qəbrinə əyilir başım,*
*Axdı ürəyimə qanlı göz yaşım.*
*Mahir sənətkarım, böyük qardaşım,*
*Ömrümün sazında tellər ağladı...*

Bir müddət respublika Yaradıcılıq Evində metodist işləyən şair sonra Gəncə Xalq Yaradıcılığı Evində folklor şöbəsinin müdiri vəzifəsində çalışır. Lakin NKVD-nin əməkdaşları onu gözə görünmədən izləyirlər. Bunu bilən raykom katibləri, prokurorlar, milis rəisləri onunla gizli surətdə görüşür, şeirlərini böyük maraqla dinləyirdilər. Aşıqlar, xanəndələr qadağalara baxmayaraq elə bir toy və el şənliyi olmazdı ki, onun gah ürəkləri yandıran, gah də sərinlədən şeirlərini oxumasınlar. Onun şeirlərini oxuyanlar da, dinləyənlər də feyziyab olurdular. İndi də oxuyurlar. Xalq artisti Şahnaz Haşımovanın oxuduğu "Göygölə gəl, Göygölə", "Dərdli-dərdli" mahnıları hamının zövqünü oxşayır. Cənubi Azərbaycanda məşhur el aşığı Hüseyn Cavanla deyişməsi, Təbrizdə və Türkiyədə şairin aşıqlarla şeirləşməsi də çox maraqlıdır. Tanınmış aşığımız Mikayıl Azaflı ilə deyişmələri məclislərdə dəb düşmüşdü.

Anasının məzarı üstə dediyi "Yatır" şeiri Azərbaycanın bütün guşələrində, o cümlədən Cənubi Azərbaycanda və Türkiyədə sevilir. Şeirdən iki bənd belədir:

*Ana, sən yatdığın qara torpaqda*
*Saysız cavan yatır, ixtiyar yatır.*
*Qapısız, aynasız zülmət otaqda,*
*Minlərlə ayüzlü vəfadar yatır.*
*Daşqınam, anacan bir qəlbi xəstə,*
*Sənsiz yaşayıram quştək qəfəsdə,*
*Bir gün deyəcəklər qəbrimin üstə,*
*Burda şair yatır, sənətkar yatır.*

Daşqın dörd poema, yüzlərlə şeir yazıb. Şeirlərindən itib-batanlar da var. Ümumilikdə əksəri ayrılığa, həsrətə, puç olmuş arzulara, qəribliyə, sevgiyə, çatmadığı vüsala, dostluğa həsr olunub. Xalq məhəbbəti qazanmış böyük şairimiz 1979-cu ildə, yetmiş yaşında vəfat edib. Doğulduğu Borsunlu kəndində dəfn olunub. Kəndə gələn hər bir qonaq onun məzarını ziyarət etməyə tələsir. Bir vaxtlar ürəyində ümmanlar çağlayan sənətkarın qəbri müqəddəs ziyarətgaha çevrilib. Çünki orda şair yatır, sənətkar yatır...

**Vəli İlyasov,**
***"İki sahil"***